سلمان الفارسي

# SALMAN ƏL-FARİSİ

## Haqqı axtaran


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

Haqq açıq-aşkardır. Allah ﷻ ondan hidayət istəyəni doğru yola yönəldir. Kim haqqı axtarırsa, Allahın izni ilə ona çatacaqdır.

Haqqı axtaranlardan biri də Əbu Abdullah Salman əl-Farisidir (Allah ﷻ ondan razı olsun). Farslardan ilk İslama gələn şəxs.

Ona İslamın oğlu və Xeyirli itaətkar (Xeyirli salman) da deyirlər.

O, haqq din axtarmaq üçün Fars şəhərinin Cəy kəndini tərk edib şama yönəlib.

Sonra İraqa gedib və o, axır zaman peyğəmbərinin Mədinəyə hicrət etdiyi deyilənə qədər hələ də ölkələr arasında gəzirdi.

O, bir karvanla oraya getdi və onlar ona xəyanət edərək onu bir yəhudiyə satdılar. Ta ki Salman (Allah ﷻ ondan razı olsun) Peyğəmbərlə ﷺ görüşdü.

Və ona deyilən peyğəmbərlik əlamətlərini onda tapdı və İslamı qəbul etdi.[1]

---

[1] Əhməd 23737

Peyğəmbər ﷺ isə əlini onun üzərinə qoyaraq onu təriflədi.

O ﷺ dedi:

“Əgər iman ulduzlarda olsaydı belə, bu kişilər onu əldə edərdilər”.[2]

O Səhabələrin alimlərindən idi.

Muaz ibn Cəbəl buyurub (Allah ﷻ ondan razı olsun):

“Elmi dörd şəxsdən götürün, Uveymir Abu Dərdə, Səlmən əl-Fərisi, Abdullah İbn Məsud və Abdullah ibn Sələmdən”.[3]

Onun mahirliyinə işarə edən hadisələrdən biri də budur ki, Əhzab döyüşü zamanı O, Peyğəmbərə ﷺ xəndək qazmağı tövsiyə etdi və dedi:

“Ey Allahın Elçisi ﷺ, biz Fars torpağında olduğumuz zaman üstümüzə gələn çoxlu atlar bizi qorxutdu. Bizdə özümüzə Xəndək qazıdıq. Salmanın (Allah ﷻ ondan razı olsun) fikri müsəlmanları heyran etdi və Peyğəmbər ﷺ bunu qəbul etdi”.[4]

[2] Buxari və Muslim
[3] Əhməd 21599
[4] Tərix ət-Tabəri 2/566

Onun nəsildən-nəslə örnək olan böyük tövsiyələrindən biri də, Əbu əd-Dərdaya (Allah ﷻ ondan razı olsun): “Rəbbinin sənin üzərində haqqı var, nəfsinin sənin üzərində haqqı var, ailənin də sənin üzərində haqqı var Hər kəsin haqqını ver.” deməsi olub.

Bu sözdən sonra Peyğəmbər ﷺ dedi ki: “Salman doğru dedi”.[5]

O, təvazökar və səxavətli sədəqə verən bir zahid idi. O, bütün maaşını sədəqə verir, sonra hörmə işləyib öz əlindən qazandığını yeyir və heç kimdən heç nə qəbul etmirdi.[6]

O Allaha ﷻ təvəkkül ilə səbəblərdən yapışmağı cəm edərdi.

O evində saxlamaq üçün bazardan ərzaq alardı. Ona dedilər ki: Sən Allah rəsulunun Səhabəsi olduğun halda bunu edirsən? O, dedi:

“Əgər nəfs öz ruzisinə çatarsa, rahatlaşar və ibadət üçün azad olar və vəsvəsələr ondan ümidini üzər”.[7]

Salman əl-Farisi (Allah ﷻ ondan razı olsun) otuz üçüncü ildə mədəin torpaqlarında vəfat etdi.

Allah ondan razı olsun. O Allahdan razıdır.

---

[5] Buxari 1968
[6] Tərix Dəməşq 21/436
[7] Ət-Təbərani əl-Kəbir 6057